***❐ Son illərdə beynəlxalq miqyasda həyata keçirilən bir sıra tədbirlər informasiya cəmiyyətinə gedən yolda jurnalistikanın fəaliyyətinin gücləndirilməsinə böyük təkan vermişdir. Jurnalistika peşəsi xüsusi vərdişlər və biliklər tələb etdiyinə görə inkişaf etmiş ölkələrdə jurnalist kadrların hazırlanmasının müəyyən sistemi mövcuddur. Xarici ölkələrin bəzi tədris müəssisələrində jurnalist təhsili almaq üçün əvvəlcə hansısa digər ixtisasa yiyələnmək tələb olunur. Ayrı-ayrı ölkələrdə jurnalist təhsilinə yiyələnmək üçün yaş da müəyyənləşdirilmişdir: 21 yaşdan yuxarı. Bu o deməkdir ki, orta məktəbi bitirdikdən dərhal sonra jurnalist peşəsinə yiyələnmək olmaz. Bu isə həyat təcrübəsinin və əmək fəaliyyəti stajının vacibliyi ilə izah edilir. Qeyd etmək lazımdır ki, jurnalistika fakültələrində, şöbələrində və kurslarında tədris planlarının və proqramlarının məzmunu müxtəlif olsa da, gələcək jurnalistlərin kütləvi informasiya vasitələrində təcrübə keçmələri məcburidir.***

# Jurnalist təhsili və beynəlxalq təcrübə

Bir zamanlar İngiltərədə belə hesab edirdilər ki, jurnalist olmaq üçün əmək fəaliyyətinə qəzetdə kuryer vəzifəsindən başlamaq lazımdır və tədricən baş redaktor vəzifəsinə yüksəlmək olar. Müasir şəraitdə jurnalist kadrlarının hazırlanmasının daha mürəkkəb və daha keyfiyyətli yolu ən yaxşı təhsil mərkəzlərindən – Oksford və Kolumbiya universitetlərindən, Fransada Siyasi Elmlər Məktəbindən və digər jurnalistika məktəblərindən keçir.

Avropanın və ABŞ-ın KİV-ləri ən professional və mükəmməl hesab edilir. Bəlkə elə buna görə də bütün dünyanın gəncləri jurnalistlər hazırlayan Avropa və Amerika ali məktəblərinə qəbul olunmağa səy göstərirlər. Həm ABŞ-ın, həm də İngiltərənin hər bir iri univeristetində jurnalist ixtisasına yiyələnmək mümkündür. Bəzi ölkələrdə, o cümlədən Avstraliyada, Yeni Zelandiyada, qismən də Fransada bu ixtisas incəsənət fakültələrində tədris olunur və məzunlar ali məktəbi bitirdikdən sonra incəsənət sahəsində jurnalistika ixtisası üzrə bakalavr diplomu alırlar.

Məlum olduğu kimi, jurnalistika müxtəlif istiqamətlidir. Qəzet, televiziya jurnalistləri, elmi, hərbi jurnalistlər və s. Məhz buna görə də jurnalist olmaq istəyən hər bir şəxs ali məktəbi seçərkən ixtisasını dəqiq müəyyənləşdirməlidir. Amerikanın ən nüfuzlu ali məktəblərindən biri – Kolumbiya Universiteti yanında jurnalistika məktəbi əslində bütün istiqamətlər üzrə mütəxəssislər hazırlayır. Jurnalist kadrlarının hazırlanmasında Nyu-York Universitetinin jurnalistika şöbəsi çox mühüm rol oynayır. Burada 1975-ci ildən etibarən həm bakalavr, həm də magistratura pillələri fəaliyyət göstərir. Bu ali məktəbdə Amerika jurnalistlərinin bir neçə nəsli hazırlanmışdır. ABŞ-ın “New York Times” , “Washington Post” kimi aparıcı qəzetlərinin, habelə ən iri televiziya kanallarının və informasiya agentliklərinin xeyli əməkdaşı məhz həmin ali məktəblərin məzunudur. Nyu-York Universiteti jurnalistika şöbəsinin müəllim kollektivi 20 nəfərdən ibarətdir. Onların hər birinin aparıcı mətbuat orqanlarında və ölkənin ən iri televiziya kanallarında iş təcrübəsi vardır. Bu müəllimlərdən üç nəfəri “New York Times” qəzetindən gəlmişdir. Nyu-York Universitetində Amerika jurnalistika məktəblərinin ən yaxşı ənənələri qorunub saxlanır, gələcək jurnalistlərin təkcə nəzəri hazırlığına deyil, həm də praktiki hazırlığına böyük əhəmiyyət verilir.

Nyu-York Universitetində jurnalistika üzrə magistr proqramı yalnız 9 kursu nəzərdə tutur. Bunların böyük əksəriyyəti praktik xarakter daşıyır. Bu kurslar öz dərinliyinə və qarşıya qoyulan tələblərə görə bakalvar kurslarından daha yüksək səviyyədə olsa da, Nyu-York Universiteti jurnalistika üzrə bakalavr dərəcəsi almış tələbələrinə həmin ixtisas üzrə magistraturaya daxil olmağı tövsiyə etmir. Belə hesab edilir ki, digər sahə üzrə ikinci elmi dərəcə almaq tələbələrin gələcək fəaliyyəti üçün daha sərfəli olar.

Bəzən ixtisasın adında “jurnalistika” sözü ümumi olaraq göstərilmir. Məsələn, Avstraliya Western Sidney Univeristeti seçilmiş istiqamətdən asılı olmayaraq, məzunlara aşağıdakı ixtisaslar üzrə diplom verir: işgüzar jurnalistika, elmi jurnalistika, idman jurnalistikası, siyasi jurnalistika. Yeni Zelandiya Texnologiyalar İnstitutunda Bachelour of Media Arts (İncəsənət mediası üzrə bakalavr) ixtisası vardır. Burada jurnalistlərdən əlavə, dizaynerlər, fotoqraflar və musiqiçilər hazırlayırlar. Çox vaxt “jurnalist” sözü “KİV” sözü ilə əvəz edilir.

İki ixtisas üzrə təhsil aparan ali məktəblər də vardır. Bu ixtisaslardan biri jurnalistikadır, ikincisi isə hər hansı digər sahəyə meyldir. Bonn-Reyn-Ziq Texniki İnstitutu Almaniyanın tanınmış ali məktəblərindən biridir və “texniki jurnalistika” ixtisasını təklif edir. Burada tələbələr humanitar fənlərlə yanaşı, informatikanı, fizikanı, riyaziyyatı, avtomat idarəetmə texnikasını və s. öyrənir, yəni əlavə texniki təhsil alırlar.

İspaniyanın paytaxtı Madriddəki III Karlos Universiteti jurnalistika ilə yanaşı, “hüquq və jurnalistikla” və “iqtisadiyyat və jurnalistika” ixtisaslarını təklif edir. Burada tələbələr sosial-humanitar elmləri öyrənirlər.



“Hüquq və jurnalistika” ixtisası alan tələbələrə hüquq tarixi, konstitusiya hüququ, cinayət hüququ, politologiya, fəlsəfə, dövlət idarə etməsi, jurnalistikanın əsasları, KİV-in tarixi fənləri öyrədilir. Şübhəsiz, bütün bunlar İspaniyanın tarixi, ictimai–siyasi həyatı ilə əlaqələndirilir. “İqtisadiyyat və jurnalistika” ixtisası mikro və makro iqtisadiyyat, mühasibat uçotu, statistika, beynəlxalq iqtisadiyyat, informatika kimi fənlərin öyrənilməsini nəzərdə tutur. Buraya gələcək jurnalistin ənənəvi etika qaydalarına riayət etməsi də əlavə olunur. İspaniyanın Navvara Universitetində tələbələr iki təhsil alırlar-fəlsəfə və jurnalistika. Almaniyanın Hochsehule Maqdeburg-Stendal Univeristeti abituriyentlərə “media-menecment” ixtisasını təklif edir. Burada bilavasitə ixtisasla bağlı olan fənlərlə yanaşı, politologiyanı, KİV-də maliyyəni, menecmenti və digər sahələri öyrənirlər.

Fransada jurnalist təhsili sahəsində zəngin təcrübə toplanmışdır. Hələ 1935-ci ildə Fransada jurnalist peşəsini müəyyənləşdirən fundamental qanun qəbul edilmişdir. Həmin qanuna uyğun olaraq, jurnalist dövri mətbuat orqanlarında və agentliklərdə müntəzəm işləyən və əməyinə görə haqq alan peşə sahibidir. 1974-cü ildə bu tərif bir qədər dəyişdirilmiş, peşəkar jurnalistlər kateqoriyasına daxil edilmişdir. Bundan əlavə, jurnalist işi anlayışı dəqiqləşdirilmişdi. 1982-ci ildə audiovizual KİV haqqında qanun qəbul edildikdən sonra ixtisasın tərkibinə radio-televiziya jurnalistləri də daxil edilmişlər. Xüsusi komissiya hər il jurnalistin peşə kartını təqdim edir. Bu komissiyanın çoxillik fəaliyyəti ilə bağlı məlumatlar yarım əsr ərzində peşənin inkişafını təsəvvür etməyə və bəzi nəticələr çıxarmağa imkan verir. 1955-ci ildə 6.836 jurnalistin kartı vardısa, 1995-ci ildə həmin rəqəm 28.471-ə çatmışdı.

Dünyanın inkişaf etmiş ölkələrindən sayılan Fransada jurnalistikaya, əsasən, humanitar elm sahələrinin diplomları ilə gəlirlər. Ölkədə KİV-də çalışanların 20 faizi filoloq, 16 faizi tarixçi, 17,4 faizi hüquq və siyasi elmlər sahəsinin adamlarıdır. Ötən əsrin 60-cı illərinin birinci yarısında KİV-də çalışan jurnalistlərin yalnız 6 faizi ali jurnalistika təhsilinə malik idi və ya Parisdəki jurnalistika mərkəzinin diplomları ilə işləyirdilər. Hazırda Fransada jurnalist təhsili fəaliyyəti ilə həm dövlət ali məktəbləri, həm də özəl məktəblər məşğul olurlar. Bir sıra ali məktəblərdə jurnalistika şöbələri də fəaliyyət göstərir. Paris-2 univeristetinin Fransa Mətbuat İnstitutu ali təhsil müəssisələri arasında daha çox məşhurdur.

Almaniyanın Dortmund Univeristetində isə jurnalistlər və elmi jurnalistlər hazırlanır. Burada ixtisas fənləri ilə yanaşı, bəzi təbiət elmləri və texniki fənlər öyrədilir, elmi problematika üzrə məqalələr yazılması vərdişləri aşılanır. Münhendəki alman jurnalistika məktəbində də jurnalist kadrları hazırlanması sahəsində zəngin təcrübə qazanılmışdır.

Almaniyada jurnalist təhsilinə necə böyük diqqət yetirildiyini nəzərə çatdırmaq üçün 2006-cı ildə bu ölkənin ən məşhur jurnalistika məktəblərindən biri olan Hamburq şəhərindəki Henri Nannen adına məktəbə qəbul imtahanının bəzi suallarına diqqət yetirək:

– əgər bir kiloqram buzu (0 dərəcə) 1 litr qaynanmış su ilə qarışdırsaq, buz əridikdən sonra qarışıq hansı temperaturda olar?;

– yaşlı adamın sümüklərinin sayı nə qədərdir?;

– İşıq ili astronomiyada nəyə uyğun gəlir.

Yəqin ki, bu suallar çoxlarını çaş-baş salır. İş burasındadır ki, haqqında söhbət gedən məktəbə qəbul olunmaq son dərəcə çətindir. Buranın tələbəsi olmaq istəyən hər bir gənc istədiyi yerə qəbul olunmaq üçün bir çox bilik sahələrindən, o cümlədən siyasətdən, tarixdən, coğrafiyadan, təbabətdən, astrofizikadan yaxşı baş çıxarmalıdır. Yalnız bundan sora o, ali məktəbin tələbəsi adını qazanar və burada yüksək elita təhsilinə yiyələnə bilər. Bu elə bir təhsildir ki, onun sahibi təkcə jurnalist kimi deyil, həm də digər sahələrdə uğurla fəaliyyət göstərə bilər.

Maraqlıdır ki, həmin məktəbə qəbul olunmaq üçün heç bir ilkin təhsil tələb edilmir. Yeganə məhdudiyyət yaş məsələsindədir. 19 yaşından 28 yaşına qədər olan və alman dilində şifahi və yazılı nitq qabiliyyətinə malik olan şəxs buraya ərizə verə bilər. Ərizə verənlər internetdə qeydiyyatdan keçməli və təklif olunmuş 5 mövzudan birində şərh və reportaj yazmalıdır. Altmış ən yaxşı iddiaçını sonrakı imtahanlara dəvət edirlər. Qalibləri burada ciddi seçimin birinci mərhələsi gözləyir. Onlar biliklərinin yoxlanması ilə yanaşı, müəyyən müddətə reportaj yazmalıdırlar. Reportaj yazmaq üçün üç saat informasiya axtarışına və üç saat da yazmağa vaxt ayrılır. Bundan sonra 12 nəfərdən ibarət münsiflər heyəti onları əsaslı surətdə yoxlayır. 1.500 iddiaçıdan yalnız 20 nəfər ən yaxşı iddiaçı məktəbə qəbul oluna bilir. Təhsil pulsuzdur, tələbələrin hər biri hətta ayda 761 avro məbləğində müavinət alır.

Şimali Avropa ölkələrində jurnalistikanın inkişaf etdirilməsi və onun cəmiyyətlə əlaqələrinin möhkəmləndirilməsi sahəsində böyük nailiyyətlər qazanılmışdır. Jurnalist təhsilinin təkmilləşdirilməsi də bu işdə mühüm rol oynamışdır. Əlbəttə, bir qəzet və jurnal məqaləsində bu ölkələrdə jurnalist təhsilinin uğurları, tələbələrin praktik həyata hazırlanması üçün görülən işlərin hamısı haqqında danışmaq qeyri-mümkündür. Finlandiyanın təcrübəsinə diqqət yetirək. Qeyd etmək lazımdır ki, Finlandiya Şimali Avropada jurnalistikanı ali təhsil səviyyəsində tədris etməyə başlayan ilk ölkədir. 1925-ci ildə Helsinkidə ictimai kollecin əsası qoyulmuş və burada ilk jurnalistlərin hazırlanmasına başlanmışdır. İkinci Dünya müharibəsinin axırlarına qədər həmin proqramla 50 nəfər jurnalist hazırlanmış, 1945-1960-cı illərdə isə daha 50 nəfər məzun jurnalist təhsili almışdı. 1930-cu ildə kollec Ali İctimai Elmlər Məktəbinə çevrilmiş, 1947-ci ildə isə bu məktəbdə ilk professor fəaliyyətə başlamışdı. Tezliklə jurnalistika magistratura səviyyəsində öyrənilmiş və bütün məzunlar jurnalist ixtisası üzrə diplom almışlar. 1964-cü ildə bu məktəb Tampereyə köçürüldükdən sonra ümumtəhsil proqramı əsaslı surətdə genişləndirilmiş və iki istiqamətə bölünmüşdür. 1969-cu ildə Elektron KİV kafedrası yaradılmışdır. Bu gün həmin struktur Tampere Universitetindəki ictimai elmlər fakültəsində jurnalistika və kütləvi kommunikasiyalar şöbəsi adlanır. Hazırda jurnalistika, həmçinin media bölümündə iş üçün ixtisaslar, o cümlədən ictimaiyyətlə əlaqələr, reklam, səsləndirmə kimi sahələrdə işləyə biləcək mütəxəssislər Finlandiyada ən populyar ixtisaslar hesab edilir. İnkişafın ardıcıl surətdə davam etdiyini göstərmək üçün aşağıdakı faktlara diqqət yetirək: 1998-ci ildən sonra ölkədə jurnalistika təhsili verən məktəblərin miqdarı iki dəfə artmışdır. 40 bölgədə fəaliyyət göstərən 70-dən çox məktəbdə jurnalistika tədris olunur. Maraqlıdır ki, jurnalistika ilə əlaqəsi olmayan bir sıra ali məktəblərdə də həmin ixtisas öyrədilir.

Helsinki Universitetində media və kommunukasiyalar şöbəsi, Tampere universitetində kütləvi kommunikasiyalar şöbəsi, Yuvaskül Universitetində media və kommunukasiyalar şöbəsi, Helsinki Universiteti nəzdində İsveç ictimai elmlər məktəbində jurnalistika aparıcı istiqamət hesab edilir. Finlandiyanın Turku şəhərindəki İsveç Universiteti və digər məktəblərdə jurnalist kadrlarının hazırlanması işi yüksək səviyyədə qurulmuşdur. Həmin şöbələrə qəbul olunmaq cox çətindir. Ali məktəblərdə jurnalistika şöbəsinə qəbul olunmaq üçün yaradıcılıq məhsulu – esse yazılmasına baxmayaraq, çox ciddi müsabiqə keçirilir və ali məktəbə keçid balı yüksək olur.

Finlandiyanın jurnalistika və kütləvi kommunikasiyalar şöbələrinin, bir qayda olaraq, radio və televiziya studiyaları vardır. Universitetlər ümummilli və regional media şirkətləri ilə əməkdaşlıq edirlər. Finlandiyanın media şirkətlərinin özlərinin də jurnalistika məktəbləri mövcuddur.

Qloballaşma dövründə jurnalistikanın özündə də ciddi dəyişikliklər baş verir. Bu gün jurnalist eyni vaxtda həm qəzet, həm radio, həm televiziya, həm internet, həm mobil jurnalistika üçün işləməyə imkan verən rəqəmsal texnologiyalara malikdir. Jurnalist kadrlarının hazırlanması sahəsində beynəlxalq təcrübədən istifadə etməklə ölkəmizdə də müəyyən işlər görülməkdədir. Bu gün inkişaf etməkdə olan Azərbaycanda aşağıdakıları həyata keçirmək mümkündür:

– BDU-nun jurnalistika fakültəsini Azərbaycanda jurnalistikanın mərkəzinə çevirmək;

– ölkədə nəşr olunan qəzet və jurnal, televiziya və informasiya agentlikləri əməkdaşlarının təkmilləşdirilməsi üçün jurnalistika kursları təşkil etmək;

– yaxın gələcəkdə digər ixtisaslar üzrə bakalavr pilləsini bitirənlərin ikinci ixtisasa- jurnalistika ixtisasına yiyələnmələri üçün BDU-nun jurnalistika fakültəsində şöbə açmaq;

– jurnalistika fakültəsinin müəllimlərinin ixtisasının artırıb təkmilləşdirilməsi üçün xüsusi kurslar təşkil etmək və ya onların bəzilərinin tanınmış beynəlxalq jurnalistika məktəblərində və ya universitetlərin jurnalistika fakültəsində staj keçmələrinə şərait yaratmaq.

Ümumən xarici ölkələrdə jurnalist təhsilinin təkmilləşdirilməsi sahəsində toplanmış zəngin təcrübədən istifadə etmək Azərbaycanda jurnalist təhsilinin günün tələbləri səviyyəsinə qaldırılmasında çox böyük əhəmiyyət kəsb edərdi. Son illərdə jurnalistika fakültəsində yaradılmış beynəlxalq jurnalistika kafedrasının xətti ilə həyata keçirilən bir sıra tədbirlər, o cümlədən beynəlxalq yönümlü fənlərin tədrisi jurnalist kadrlarının dünyada baş verənlər haqqında daha yaxşı məlumatlandırılmasına, beynəlxalq informasiyaya dərin maraq göstərmələrinə şərait yaradır.

***Həmid VƏLİYEV,***
***BDU-nun beynəlxalq jurnalistika kafedrasının müdiri, professor***